# Şirvandakı "Cənub" Elektrik Stansiyasının bir bloku hidrogenlə çalışacaq

## "Azərenerji" və "GE Vernova" şirkəti arasında sənəd imzalanıb






COP29 çərçivəsində "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə Qaz Enerjisi istiqamətində prezidenti və baş icraçı direktoru Cozef Anisin iştirakı ilə "yaşıl zona"da tədbir keçirilib.

Tədbirin əsas mövzusu "GE Vernova" şirkəti tərəfindən "Azərenerji" ASC-nin Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasının qaz turbinlərindən birinin 100 faiz hidrogen yanacağı ilə işləməyə keçirilməsi layihəsi olub.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, tədbirin yekunu olaraq, "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin səlahiyyətli nümayəndəsi Cozef Anis arasında sözügedən layihə ilə bağlı sənəd imzalanıb.

Azərbaycan. - 2024.- 15 noyabr (№ 251).- S.20.